# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANA RƏHBƏRLİK ETDİYİ DÖVRDƏ TƏBİƏTƏ QAYĞIKEŞ MÜNASİBƏTİ

**Asəf Abbasov, Aynurə Aslanova, Güləbətin Eyyubova***

*AR KTN Bitki Mühafizə və Texniki Bitkilər*
*Elmi-Tədqiqat İnstitutu, Gəncə*
**gulueyyub95@gmail.com*

Ümummilli Lider Heydər Əliyevin məşhur kəlamı heç zaman unudulmur və unudulmayacaq. Çünki bu kəlam Azərbaycan xalqının yaddaşında həkk olunub və bütün dövrlər üçün əhəmiyyətlidir: "Mən istəyirəm hamınız təbiəti qoruyanlar olasınız". Dərin mənalı çıxışlarında hər zaman təbiətə yüksək qiymət verdiyi diqqət çəkirdi: "Təbiət anadır. Azərbaycan təbiəti isə anaların ən sevimlisi olmaqla var-dövlətini öz övladlarından əsirgəmir". Heydər Əliyev ölkəmizin analoqu olmayan flora və faunasından daim iftixar hissi ilə danışardı. Ona görə də yurdumuzun torpaq, bitki, su, hava, meşə, bulaq və bitki örtüyünü daha dərindən öyrənməyə istiqamət verirdi.

1977-ci ildə Ulu Öndər keçmiş Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun neçə illik yubileyində institutu "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif etməklə həmçinin ərazinin yaşıllığına da xüsusi qiymət vermişdir.

İndiki Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu kimi fəaliyyət göstərən bu elm ocağının pambıqçılıqla məşğul olan şöbə və laboratoriyalarının tədqiqat apardığı ərazilərin qoruyucu zolaqlarında daim bərpa işləri aparılır, ağac və kol bitkiləri daim yenilənir.

Şöbəmizdə (Genetika və genefond laboratoriyası) qorunub saxlanan genefondda dünya kolleksiyasının nümunələrindən olan sortlar qorunub saxlanılır ki, bu da bitkilərin qorunmasının bir yoludur.

Müxtəlif təsnifatlara istinad edərək, 5-i mədəni olmaqla dünyada pambığın 41 növü qeydə alınmışdır. 5 mədəni növdən hazırda yalnız 3 növü (*G.hirsutum, G.barbadense, G.arboreum*) olmaqla yanaşı, pambığın dünya kolleksiya genefondunda ümumi olaraq 850 sort və sort nümunələrinin məqsədyönlü şəkildə saxlanılması istiqamətində tədqiqat işləri aparılır. Nümunələrin genetik müxtəlifliyi iqtisadi potensialının əsasını təşkil etməklə davamlı inkişafın təmin edilməsi əsas amillərdən biridir. Eyni zamanda genetik ehtiyatların mühafizəsi və elmi əsaslı tədbiqi üzrə tədqiqatlarda başlıca məqsəd kimi hər bir növ müxtəlifliyinin səmərəli istifadəsi üçün əsas şərtlərdən biri də onu qoruyub saxlamaqdır. Bununla yanaşı, tələbata cavab verən intensiv tipli sortların yaradılmasında pambığın dünya kolleksiya nümunələrinin biomorfoloji və yüksək təsərrüfat qiymətli əlamətlərinə görə təhlil edilərək yaradıcı seleksiya işi üçün donor formaların seçilməsidir. Qeyd etmək lazımdır ki, bir çox ölkələrin (Hindistan və Özbəkistan kimi) iqtisadiyyatının əsas hissəsini məhz pambıqçılıqdan əldə olunan gəlir təşkil edir. İnanırıq ki, bütün gücümüzlə bir hədəfə vursaq, yaxın gələcəkdə Azərbaycan Respublikası da bu ölkələr sırasında olacaqdır. Ölkəmizdə aparılan islahatlar nəticəsində kənd təsərrüfatına dair verilən tövsiyələr digər sahələrlə yanaşı institutumuzda da günü-gündən öz nəticəsini verir. Belə ki, institutumuz bir sıra xarici ölkələrin aparıcı elmi tədqiqat müəssisələri və özəl şirkətlərlə, o cümlədən Türkiyə, Özbəkistan, Yunanıstan və Pakistanın pambıqçılıq institutları ilə birgə iş aparır.

Təbii iqlimi və fiziki-coğrafi şəraitin müxtəlifliyi Azərbaycanın bitki aləminin rəngarəng olmasına imkan yaradır. Ədəbiyyat məlumatlarına əsasən, respublikamızın torpaq fondu 8,64 milyon hektardır. Bunun 4225,2 min hektarı və yaxud 49,3%-i kənd təsərrüfatı üçün yararlıdır ki, bunun da 1460 min hektarı şumlanan torpaqlardır. Əkin üçün yararlı hesab olunan bu torpaqların 100 min hektarı pambıq bitkisinin becərilməsinə istiqamətləndirilmişdir.

Dünyada baş verən arzuolunmaz hadisələr nəticəsində (ətraf mühitin çirklənməsi, zavodlardan atmosferə buraxılan zəhərli tullantılar, istixanalardan havaya axıdılan karbon qazı, təbii meşələrin məhv edilməsi, baş verən müharibələr və s.) iqlim dəyişkənliyinə səbəb olur ki, bu da kənd təsərrüfatı bitkilərinə, o cümlədən də pambıq bitkisinə də təsirsiz ötüşmür.

Buna istinad olaraq pambıq istehsalının davamlı inkişaf etdirilməsi baxımından dövrün tələbatına cavab verən yeni sortların yaradılması aktual məsələlərdən birinə çevrilmişdir. Bu istiqamətdə çalışan seleksiyaçılar və genetiklər qarşısında duran əsas amillərdən biri məhsuldar, yüksək lif çıxımına malik, IV tipin keyfiyyət göstəricilərinə xas, xəstəlik və zərərvericilərə qarşı davamlı, ekoloji cəhətdən plastik intensiv tipli sortların yaradılması tələbi böyük əhəmiyyət kəsb edir. Seleksiyaçı alimlər nə qədər zəngin kolleksiya materialı ilə təmin olunarsa, bir o qədər asanlıqla istənilən məqsədə nail olmaq olar. Bu baxımdan pambıq bitkisinin kolleksiyada olan çoxlu nümunələrinin biomorfoloji xüsusiyyətləri, təsərrüfat göstəriciləri, zərərverici və ya xəstəliklərə qarşı davamlılığı, onun mənşəyi, bir sözlə irsiyyətə keçən qanunauyğunluqlar haqqında nə qədər çox məlumat toplanarsa, seçəcəyimiz donor valideyndəki əlamətləri sonrakı nəsillərə ötürmək bir o qədər asan olacaqdır. Buna görə də pambığın dünya kolleksiyası genefondunda olan nümunələrdən hibridləşməyə cəlb olunması zəruri şərtlərdən biridir.